# Ziyalı intellekti və sağlam düşüncə

**Akademik Məmməd Salmanovun "Mən belə yaşadım" xatirələr kitabı haqqında qeydlərimə başlayarkən öncə onu qeyd etmək istəyirəm ki, Azərbaycan da ümumi biologiyanın fundamental qollarından biri sayılan mikrobiologiya elmi sahəsində 60 ildən çox səmərəli fəaliyyəti olan Məmməd müəllim sözün əsl mənasında peşəsinin vurğunudur. Ömrünü arzusunda olduğu, sevdiyi peşəyə həsr edən insan həmişə onu uca tutmağa çalışır, bütün istedadını burada reallaşdırır. Məmməd müəllimin bir alim kimi yaradıcılığını izləyərkən müdrik filosofların "Peşə, sanki, insanın "Eqo"sudur" kəlamını xatırlamaq mümkün deyildir. Məmməd müəllim qlobal düşünən insan kimi dərk edir ki, peşənin nüfuzu, peşəkarın intellekti əsrimizin intellektual potensialının inkişafında müstəsna rol oynayır.**

Məhz Məmməd müəllimin yaradıcı intellekti onun həyatını elm-təhsil ocaqlarına bağlamış, buradakı nüfuz sahibləri ilə ünsiyyət bağlamağa imkan vermişdir. Bu insanın müdrikliyi ondadır ki, sağlam düşüncə sahibi kimi həyatı olduğu kimi qəbul edir. O, Böyük Vətən Müharibəsinin dəhşətlərini hələ uşaq ikən hiss etmiş, 14 yaşından ata yurdunu tərk edərək ağır həqiqətlərlə üzləşmiş, lakin həyat onu sındırmamışdır. Özü bu barədə yaxşı deyir: "Qarşılaşdığım müşkül məsələlərin, işlərin hər biri mənim həyatımın hissələridir, mənə əzizdir və çox şadam ki, onları dəf edə bilmişəm, onlar mənə düzgün seçdiyim yoldan, arzu istəklərdən yayındıra bilməmişdir". Bizə elə gəlir ki, insan ömrünün mənasını dərk etməyən kəs həyatı belə müdrikcəsinə qiymətləndirə bilməz. O, sanki gənclərə xitabən deyir: "Aydın dərk edirəm ki, insanın mətin olması üçün zəhmətə qatlaşmaq, dözümlülük qabiliyyəti əsas "silah"dır, dəfedici vasitədir".

Həyat qarşısında ehtiram hissi, onun dərkedilməsinə yönəlmiş intellekt müdrik insanların bəzəyidir və şübhəsiz ki, bu etik normaların ilk rüşeymləri ailədə düşüncəyə nüfuz edir. Məmməd müəllimin ona ömür vəsiqəsi, el-oba tərbiyəsi vermiş ailəsindən bəhs edərkən insan qürur hissi keçirir. Ömrünün 84-cü baharını yaşayan ustadın aldığı tərbiyəyə heyran qalırsan, "Atamızın nüfuzu, anamızın nəzarəti, göstərişi, tələbi və məsləhətləri —bax budur, şəxsən mənim ilkin və sonuncu əsas məktəblərim" deyən qeyrətli övladın valideynlərə ehtiram etikası həqiqətən öyrənilməyə layiqdir. Məmməd müəllim insaf, ədalət, halallıq, təmənnasız yaxşılıqlar, nəfs halal duz-çörək anlayışlarının tərbiyəvi mahiyyətini ailədə-evinə halal çörək gətirən Əhəd atadan öyrənmiş, ocağın işığını qorumağı Gülüm ananın mehribanlığında dərk etmiş, bunu öz düşüncəsində daim yaşatmış, bu gün də yaşatmaqdadır.

Kitabın Məmməd müəllimin gənclik illərindən bəhs edilən sətirlərini həyacansız oxumaq olmur. Mübaliğəsiz deyə bilərik ki, sətirlərin müəllifi həyatın kəşməkəşli anlarını yaşamış, acı həqiqətlərlə, mətin iradə ilə üzləşmiş, lakin görünür ona ilahidən bəxş edilmiş nikbinliyini itirməmiş, o dövrdə məsul olduğu nəslin sosioloji portretini yaratmışdır.

O, günlərin acı həqiqətləri onu qorxutmamış, əksinə daha mətin, daha dəyanətli etmiş, gələcək ideal naminə dözümlülük keyfiyyətinin dərk edilməsi onun mənliyini formalaşdırmışdır. Məmməd müəllim inanırdı ki, hər bir tənəzzül özündə tərəqqinin elementlərini daşıyır, çünki insan həyatının danılmaz qanunu belədir. Məncə, insan öz mənliyini belə həyat dönəmlərində hiss edir, ona görə də həyatın acı həqiqətləri onun iradəsini sarsıtmır.

Məmməd müəllim üçün gənclik illərini səmərəli əməklə keçirmək, ümumiyyətlə, insanın ömrünü mənalı edən bir fenomendir, həyatda məqsədyönlü zəhmətlə yaşamağın əxlaqi meyarıdır. O, yazır: "Çox vaxt haqlı olaraq demişlər ki, bütün bəlaları boş vaxt keçirənlər törədirlər. Mən istərdim bu müdrik kəlamı müasir gənclərimiz dərindən dərk etsinlər, həyatın əsl mənasını məzmunlu həyat mövqeyində görsünlər. Bizim istedadlı və zəhmətkeş gənclərimiz çoxdur. Hər halda belə bir reallıq dərk edilməlidir ki, bu gün informasiya cəmiyyətində, inkişaf etmiş ölkələrin bilik cəmiyyəti qurmaq istədikləri bir şəraitdə "boş vaxt keçirmək", yəni zamanla ayaqlaşmamaq insanı zamanın reallıqlarından uzaq salır, son nəticədə mənəviyyatın pozulmasına gətirib çıxardır".

Hesab edirəm ki, kitabın bu hissəsi öz ibrətamiz ruhuna görə ayrıca fəlsəfi-etik və sosial-psixoloji təhlilə tam layiqdir. Müəllifə tövsiyə edərdim ki, kitabın ikinci nəşrində bu hissəni genişləndirsin. Güclü hafizəyə və analitik təfəkkürə malik Məmməd müəllim bununla gənclərimizə gözəl töhfə vermiş olardı.

Bu gün biz Məmməd müəllimin əsl ziyalı intellektinə və sağlam düşüncəyə malik olmasından söhbət açarkən ilk növbədə onun misilsiz zəhmətkeşliyini nəzərdə tuturuq. Keçmiş ittifaqda, elə bu gün də Məmməd müəllimi yaxından tanıyan peşə dostları onun heyrətamiz işgüzarlığını, peşəsinə vurğunluğuna və sözün əsl mənasında ziyalı məsuliyyətinə malik olduğunu xüsusilə qeyd edirlər. "İntellekt və ziyalı məsuliyyəti" kateqoriyaları peşəkar alimin bütün elmi fəaliyyətini və intellektual simasını bəzəyən anlayışlardır. Böyük siyasətçiləri, nəhəng elm simalarını da birləşdirən ən mühüm keyfiyyət dərin intellekt və sosial məsuliyyət hissidir.

Hazırda dünyanın bir çox ölkəsində aparılan sosioloji sorğular da göstərir ki, bu gün XXI əsr cəmiyyətinin ağıllı, dərin erudisiyaya, yüksək təhsilli peşəkar, intellektual alimlərə böyük ehtiyacı vardır. Belə bir danılmaz həqiqət Azərbaycan cəmiyyəti üçün də xarakterikdir. Qeyd edək ki, maarifçiliyə böyük əhəmiyyət verən xalqımız həmişə öz alim övladlarına dərin ehtiram hissi ilə yanaşmış və indi də bu dəyərli ənənəni davam etdirməkdədir.

Məmməd müəllim xatirələrində belə bir həyati fikir söyləyir: "Hər birimiz həyatda, xüsusilə təhsilə, peşə ixtisasına yiyələnmək üçün keçdiyimiz enişli-yoxuşlu yollarda elə şəxslərə rast gəlirik ki, onların dahiliyini, insanpərvərliyini, alicənablığını və ülvi keyfiyyətlərini getdikcə daha dərindən dərk edir, belələri vaxt-zaman keçdikcə xatirimizdə böyüyür, cilalanır və əvəzsiz sərvətə çevrilirlər". Tam səmimiliklə demək istəyirəm: Məmməd müəllim özü də milli elmimizin böyük sərvətidir.

Məmməd müəllimin kitabının "Necə olmaq istərəm, necəyəm və ya hələlik — yekun" adlı sonuncu fəsli oxucunu öz əxlaqiliyi və etikliyi ilə heyran edir. Alim bu fəsli təbrizli şairimizin şeirilə başlayır: "Şeytəli mərdanə gəlib dünyaya — Köçəndə qeyrətlə köçəsən gərək". Mən Məmməd müəllimin həyat yolunu bariz şəkildə əks etdirən bu ifadəni onun ömrünə və yaradıcılığına bir epiqraf sayardım.




60 ildən çox zaman keşiyində professional fəaliyyətlə məşğul olan, elmi tədqiqatlar aparan bu ər alim insanlara imkanı çatana qədər yaxşılıq etmişdir. Onun əxlaqi kredosu belədir—insanlara gərəkli olmaq.

Məmməd müəllimin böyük ziyalılığı bundadır ki, onu Azərbaycan təhsili, Azərbaycan balalarının təhsil səviyyəsi çox qayğılandırır, narahat edir.

Ümumiyyətlə, bu fəsildə ziyalı düşüncəsini narahat edən, həssas qəlbləri bəzən sarsıdan məqamlar da az deyil. "Müstəqil, özümüzün olan Azərbaycanda öz soydaşlarımızın mənəviyyatına, savad-elmləşməsinə, yaradıcılıq-əzmkarlıq hisslərinə, milli-mənəvi dəyərlərimizin inkişafına qəsd edən saxta diplomlu "müəllimlər", minlərlə günahsız qardaş-bacılarımızın, ata-analarımızın, oğul-qızlarımızın həyatına qəsd edən, saxta sürücülük vəsiqəsi verənlərin qatı düşmənlərimiz olan ermənilərdən fərqi var, ya yox?

Vətəndaş yanğısı ilə deyilmiş bu sözlər hər bir ziyalını düşündürməlidir. Məmməd müəllimin vətəndaşlıq amalının başlıca qayəsi belədir "ziyalılarımızın dövlətə və cəmiyyətimizə xoşniyyətli yardımı bu cür sosial eybəcərliyə qarşı barışmaz mübarizədir".

Təbii ki, əzizimiz Məmməd müəllim ömrün bütün anlarını, xatirələrini, olub-keçənləri bir kitaba sığışdıra bilməmişdir və bu mümkün də deyil, hətta hafizəsi nə qədər güclü olsa da.

Akademik Məmməd Salmanovun "Mən belə yaşadım" kitabının vətəndaşlıq qayəsi çox güclüdür. Kitabın ruhundan hiss olunur ki, Məmməd müəllim üçün yaşamaq əzmi həm də yaratmaq enerjisidir, həyata ehtiram hissidir. Gənclərimizə müdrikliklə yaşamaq fəlsəfəsini aşılayan bu kitab hər bir oxucunun yol yoldaşı ola bilər.

**Qoşqar ƏLİYEV,**
**professor.**